KARYERA VƏ MƏZUNLARLA İŞ MƏRKƏZİ

# TƏLƏBƏNİN YOL XƏRİTƏSİ

# KARYERA XƏRİTƏSİ

Dəyərli SDU tələbəsi!

Karyera yolu xəyallarınıza və hədəflərinizə çatmaq üçün ən yaxşı yoldur . Yəni universitet illərindən başlayaraq karyeranızı inkişaf etdirmək üçün bir çox addımlar ata bilərsiniz, karyera həyatınıza peşəkar keçid edə bilərsiniz. Bu yolda ali təhsil öz bəhrəsini verir. Bacarıqlarınızı artırmaq, karyeranız boyu qazanc gücünüzü və məşğulluğu artırmağın bir yoludur. Siz bu illərdə həm yeni dostluqlar və əlaqələr qura bilərsiniz, eləcə də yeni bacarıqlar əldə edə bilərsiniz. Diqqətinizi karyera məqsədlərinizə yönəldirərək təhsil illərinizi daha da uğurlu və fərqli keçirmək istəyirsinizə, universitetimizin Karyera və Məzunlarla iş mərkəzi olaraq sizə bir neçə tövsiyəmiz var.

**Karyeranızın inkişaf yolunu göstərən yol xəritəsinə nəzər salmağınızı məsləhət görürük!**

## I Tədris ili

**Universiteti tanımaqdan başlaya bilərik.**

Universitet 4 il ərzində sənin həyatında mühüm rol oynayacaq və ən çox vaxt keçirdiyin yer olacaq. Bu deməkdir ki, ilkin mərhələdə universitetin sənin üçün yaratdığı imkanlarla daha yaxından tanış olmalısan və yararlanmalısan. Universitetin struktur bölmələrində gedən proseslərdə könüllü qismində iştirak edə bilərsən. Bunun üçün K və Mİ mərkəzinin könüllüsü olmaqdan başlaya bilərsən.

Xəyal etdiyiniz işin və ya ideal karyeranın nə olduğunu düşünün və sonra buna necə nail ola biləcəyinizi planını qurun . Karyeranızda istifadə edə biləcəyiniz bacarıqlarızı inkişaf etdirin. Karyera ilə bağlı fəaliyyətlərdə iştirak edin. Ən əsası qarşınıza məqsəd qoyun, ona nail olmağa çalışın və ən əsası bacaracağınıza inanın.

**Dil biliklərini inkişaf etdirmək əsas hədəfiniz olmalıdır!**

Xarici dillərin mənimsənilməsi sənin karyeranın əsas aparıcı istiqaməti olmalıdır. Universitetdə xarici dildə danışıq bacarığını inkişaf etdirmək üçün “conversation club”lara qoşul. Eləcə də dilin inkişafı ilə əlaqəli keçirilən tədbirlər barədə sosial

şəbəkələrimizdən məlumat alaraq iştirak edə bilərsiniz. Qeyd edək ki, universitet hər VI gün bu fəaliyyəti yerinə yetirir.

**2. Karyera və Məzunlarla İş Mərkəzinin (KMİ) nümayəndələri ilə görüş.**

Əziz tələbə K və Mİ mərkəzinin nümayəndələri ilə görüşü sonuncu kursa saxlama!

Yaxşı olar ki, KMM nümayəndələri ilə hər rüb görüşəsiniz və baş vermiş dəyişiklikləri müzakirə edərək karyeranızda növbəti addımları müəyyən edəsiniz.

Eləcə də, I kursdan belə K və Mİ mərkəzinin bazasının sizin də CV-niz ola bilər. Bunun üçün CV-ni hazırlayıb ( əgər dəstək lazımdırsa mərkəzdən əldə edib) çap edib təqdim edə bilərsiniz.

Brendinizi yaratmağa başlayın!

Peşəkar olaraq kim olduğunuza və nə təklif etməli olduğunuza dair ilk təəssüratlarınız peşəkar “brend”inizin və ya şəxsiyyətinizin bir hissəsidir. Brendiniz = reputasiyanız, CV və motivasiya məktubunuz brendinizin yazılı hissələridir

**İlk CV:** CV sözünü bu illər ərzində çox eşidəcəksiniz və o sizə ən çox lazım olan sənədlərdən biri olacaq - həm iş axtarışında, həm könüllülük proqramlarında, həm də layihələrdə iştirak etmək lazım gəldikdə mütləq hazır CV-niz olmalıdır. Ona görə də, çox gecikdirmədən ən qısa zamanda ilk CV-nizi hazırlayın. Özünüz haqqında öyrəndikləriniz sizi müsahibələrə hazırlamağa kömək edəcək və CV yazmağı asanlaşdıracaq. Sonra isə onu K və Mİ mərkəzində karyera məsləhətlərinizə yoxlatdırın. Bu işdə peşəkarların fikri çox önəmlidir. Məqsədinə çatmağı asanlaşdıracaq, sərt və yumşaq bacarıqlarını inkişaf etdirə biləcək seminarlara, təlimlərə qoşulmaq istəyinizi K və Mİ mərkəzinə bildirin.

**3. Tələbə klublarına müraciəti gecikdirməyin!**

Tələbə klublarına qoşulmağa bu ildən başlayın. Yeni insanlarla tanış olmaq, çevrəni genişləndirmək, hobbilərinə boş vaxt ayırmaq, yeni layihələr üzərində işləmək və müxtəlif sahələrdə fərqli təcrübələr qazanmaq üçün əla fürsətdir. Bunun üçün universitetin THİK, TGT, TEC kimi təşkilatları fəal göstərir.

**4. ÜOMG (ümumi orta müvəffəqiyyət göstəricisi)**

Dərslər və imtahanlar hərdən stressli olsa belə, onlar tələbəlik həyatının əvəzedilməz bir hissəsidir. Dərslərə kifayət qədər vaxt ayırmalısan ki, yekun nəticədə ümumi orta müvəffəqiyyət göstəricin yüksək olacaq. Gələcəkdə təhsil almaq öz sahənizdə lider olmaq istəyirsinizsə bu sizin üçün bir üstünlükdür

**5. İlk könüllülük**

Bu cür fəaliyyət növü çox mənada xeyirlidir - özünüzü tanımaq, daha geniş əhatə dairəsinə sahiblənmək, lazımlı olmaq, bacarıqlarınızı və biliklərinizi inkişaf etdirmək istiqamətində könüllü proqramları əvəzedilməz dəstəkçiniz ola bilər.

Özünüzü Qiymətləndirməyi bacarın!

Karyera planlarınızı yerinə qurarkən güclü tərəflərinizi, maraqlarınızı, bacarıqlarınızı, dəyərlərinizi və şəxsiyyətinizi dərk etməklə başlayın.

1. Hədəfləriniz olsun: Karyeranızı düşünün və nə istədiyinizi, nəyə nail olmaq istədiyinizi aydınlaşdırın. Özünüzə məqsəd qoyun və ona nail olmağa çalışın. Sizdə hər şey alınacaq.

2. Təhsil planı qurmaq ən vacib məsələlərdəndir: Universitet təhsiliniz boyu özünüzə uyğun bir təhsil planı qurun. Başqa fənlərlə yanaşı, karyeranıza əlaqəli fənlər və dərsləri seçin, biliklərinizi mənimsəməklə yanaşı araşdırma qabiliyyətinizi inkişaf erdirin.

3. Təhsilinizi nəzərdən keçirin: Hər dərsləri və təlimatları dəqiq şəkildə izləyin və təlimatçınızdan yardım istəyin. Təhsilinizdə uğur qazanmaq karyeranızın təməlini qoyacaq.

4. Təcrübələrdə iştiraka maraq göstərin: Təhsilinizi təcrübə ilə birləşdirin. Staj və ya iş təcrübəsi əldə etməyə çalışın. Bu, təhsilinizin praktik tətbiqini möhkəmləndirəcək və karyeranıza daha çox imkan açacaq. Könüllü işlərə və ictimai xidmətlərə qoşulun.

5. Networking: Universitet ərzində mümkün qədər çox insanla tanış olun. Müəyyən bir sahədə sizi mentor kimi rəhbərlik edə biləcək insanları tapın. Networking, iş təklifləri və iş birliyinin yolunu aça bilər. Könüllü olmaq, xaricdə təhsil almaq, tədqiqata kömək etmək və ya təşkilatlar ilə əlaqə qurmaq üçün əlavə imkanlar axtarın.

6. Sosial fəaliyyətlərdə iştirak edin: Universitetdə fəaliyyətlərdə iştirak edin. Bu, sizə liderlik bacarıqlarınızı inkişaf etdirməyə və yeni insanlarla tanış olmağa kömək edəcək. Özünüzü digərlərindən fərqləndirmək üçün təcrübə, mentorluq proqramları və digər işə əsaslanan öyrənmə təcrübələrində iştirak edin.

7. Karyera məqsədlərinizi yenidən nəzərdən keçirin: Təhsiliniz başa çatdıqca, karyera məqsədlərinizi yenidən qiymətləndirin. İşəgötürənlər sizin şirkətlərinə nə qədər uyğun olduğunuzu bilmək istəyirlər. Bacarıqlarınızın, dəyərlərinizin, maraqlarınızın və şəxsiyyətinizin karyera seçimlərinizə necə təsir etdiyini öyrənməyə vaxt ayırın. Özünüzə yeni məqsədlər təyin edin.

8. CV və iş axtarışına başlayın: İş yeri haqqında düşünmək üçün məzun olmağı gözləməyin. Universiteti bitirdikdə, özünüzü işə qəbul etdirmək üçün iş axtarışına başlayın. Universitetin Karyera Xidmətləri ilə yaxından tanış olun. CV-niz təqdim olunan yerlərlə maraqlanın.

9. İş yerində öyrənməyə davam edin: İşə başlayanda, öyrənmə prosesini davam etdirin. İş yerində öyrənmək və yeni bacarıqlar əldə etmək önəmlidir.

10. Karyera planı qurun: Karyera planınızı uzun müddət ərzində inkişaf etdirməyə nail olmaq üçün tərtib edin. Bu plan, hər bir addımınızı izləməyə kömək edəcək. SWOT analiz aparın.

Bu addımlar, karyeranızı inkişaf etdirməyə kömək edəcək və yeni bacarıqlar əldə etmənizə yardım edəcək. Universitet illəriniz boyu, özünüzü inkişaf etdirmək üçün çalışın və müstəqil karyeranızı qurun.

## II Tədris ili

**6. K və Mİ mərkəzi ilə görüşün vaxtıdır.**

Hər ilin əvvəlində K və Mİ mərkəzinin məsləhətçiləri ilə görüşüb bu akademik il üçün məqsədlərinizi təyin etməyin tam vaxtıdır.

***Peşəkar inkişafınıza dəstək olmağımız üçün bizə müraciət edin.***

**7. Şəbəkə:** Şəbəkələşmə həm iş, həm də şəxsi həyatında faydalana biləcəyin başlıca ünsiyyət bacarığıdır. Ona görə də çalış ki, ətrafını öz sahəndə çalışan şəxslərlə genişləndirəsən.

Şəbəkələşmə qarşılıqlı, faydalı əlaqələrin inkişaf etdirilməsi və davam etdirilməsi üçün ünsiyyət bacarığıdır. Reputasiyanızı və brendinizi yaratmaq üçün imkanlar,

məsləhətlər və əlaqələr haqqında məlumat əldə edin və başqaları ilə əməkdaşlıq edin və məlumat paylaşın.Sosial şəbəkələrdə əlaqələrinizi artırmağa çalışın və real həyatda da görüşlərlə bu əlaqələri möhkəmləndirin.

**Fərdi inkişaf:** ixtisasına uyğun olmağa çalışın, inkişaf imkanlarından (seminarlar, konfranslar, təlimlər, görüşlər) yararlan. Onlar sənin peşəkar biliyini artırmaqla yanaşı, ətrafını da formalaşdıracaq.

**8.Yay təcrübəsi**:

Tədris zamanı çətin ola bilər, lakin yay tam bir təcrübə zamanıdır. Həmin ilin fevral ayından başlayaraq öz sahəniz üzrə çalışan şirkətlərin siyahısını tərtib edərək onlarla əlaqə saxlamağa çalışın. Hər hansı proqram və təcrübə proqramı olduğu təqdirdə ora müraciət edin. Bu proqramlar sizə sahəniz üzrə real iş təcrübəsi əldə etmək imkanı verəcək. Bu məqsədlə K və Mİ mərkəzindən də dəstək ala bilərsiniz.

## III Tədris ili

**9. Qloballaşan dünya**

İndi universitetdən kənara çıxmağın vaxtıdır. Müxtəlif layihələr üzərində işləyərək beynəlxalq perspektiv əldə edə biləcəyiniz bir çox beynəlxalq tələbə təşkilatları var. Eləcə də universitetin Beynəlxalq əlaqələr şöbəsindən mübadilə proqramları barədə məlumat ala bilərsiniz. Nəticədə həm xarici dilinizi təkmilləşdirəcəksiniz, həm də qlobal mühitdə işləmək şansınız olacaq.

Universitetdə fəaliyyət göstərən Erasmus + və başqa mübadilə proqramlarında iştirak edərək 1 semestr xaricdə təhsil almaq və təcrübəni təkmilləşdirmək imkanın ola bilər.

Yay mövsümü yaxınlaşdıqca, dil təcrübənizi təkmilləşdirmək və xarici ölkədə tək yaşamaq və işləmək təcrübəsi qazanmaq üçün 'Work&Travel' ilə görüşlərə başlaya bilərsiniz. Bu xoş təcrübə gələcək illərdə özünüzlə bağlı mühüm qərarlar qəbul etməyə kömək edəcək.

## IV Tədris ili

### 10. ƏLDƏ ET!

Karyera Mərkəzi ilə karyera planlaması görüşü: artıq sonuncu kursdur və Universitetdən sonrakı həyatı planlamaq lazımdır.

CVvə motivasiya məktubunu hər il yeniləmək məsləhətdir. Hər il CV və motivasiya məktubunuza nəzər yetirib yeniləmək mütləqdir.. Sənin artıq professional LinkedIn səhifən olmalıdır.

**Xaricdə təhsil**: Xaricdə təhsil seçimini etmisinizsə, o zaman xarici dil imtahanlarına hazırlaşmaq lazımdır – IELTS, TOEFL, YÖS, TESTDAF və s.

**Tam iş gününə hazırlıq**: Universitetdən sonra işləyəcəyiniz iş yerini axtarmaq lazımdır. Bunun üçün şirkətlərə birbaşa müraciət, karyera sərgilərində iştirak və iş axtarma saytlarından istifadə etmək olar.


***Bizimlə əlaqə:***

***Tel: (+99455) 825 28 62***

***Email: nasiba.amirbekova@sdu.edu.az***

***Instagram: sdu.karyera***

***LinkedIn: sdu.karyera***